**UNEC** **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Təsdiq edirəm:**
**"İqtisadiyyat" kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**12 sentyabr 2025-ci il**

**MÜQAYİSƏLİ İQTİSADİ SİSTEMLƏR FƏNNİ ÜZRƏ**
**İŞÇİ TƏDRİS PROQRAMI**
**(Sillabus)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fakültə | **İqtisadiyyat və idarəetmə** | | | | | |
| Kafedra | **İqtisadiyyat** | | | | | |
| Fənnin kodu | | | | | | |
| Fənnin növü | **Əsas** | | | | | |
| Tədris dili | **Azərbaycan** | | | | | |
| Tədrisin forması, qrup, tədris yükü | Əyani/qiyabi<br>**qrup** | Semestr<br>**payız** | Tədris yükü:<br>**60 saat** | Mühazirə<br>**30 saat** | Məşğələ<br>**30 saat** | Kredit<br>**6** |
| Fənni tədris edən müəllim: S.A.A | | | | | | |
| Tələbələr üçün qəbul vaxtları: | V gün, saat 12:00-13:00 | | | | | |
| Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı | **012 564 37 06** | | | | | |

## III. Fənnin təsviri

Bu fənn iqtisadi sistemləri və mövcud inkişaf modellərini əhatə edən nəzəriyyələri, faktları və siyasətləri öyrədir, ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaqla inkişaf səviyyəsinə uyğun aspektləri təhlil edir. Bu kursun tədrisi zamanı müqayisəli iqtisadi sistemlərin iqtisadi elmlər sistemində tutduğu yeri və onun iqtisadi nəzəriyyələrinin təkamülündə rolunu, iqtisadi inkişafın formalaşması və fəaliyyət göstərməsinin əsas qanunauyğunluqlarını, bu sahədə xarici və yerli iqtisadi fikrin təkamül və meyllərini, postindustrial iqtisadi sistemlərə keçidi və davamlı inkişaf məqsədlərinin reallaşdırılmasını müəyyən etməyə, habelə iqtisadi fəaliyyətlə təsərrüfat mədəniyyətinin qarşılıqlı əlaqəsini əks etdirməyə xüsusi diqqət yetirilir. Eyni zamanda iqtisadi inkişaf modelləri üçün faktların iqtisadi təhlilin metod və yanaşmalarının substantiv mənasına diqqət yetirilir.

## IV. Fənnin məqsədi və vəzifələri

Müqayisəli iqtisadi sistemlər iqtisadiyyatın müxtəlif iqtisadi sistemlərinin müqayisəli öyrənilməsinə yönəlmiş alt sahəsidir. Bu sistemlərə kapitalizm, sosializm və qarışıq iqtisadiyyatlar kimi müxtəlif iqtisadi təşkilat üsulları daxildir. Fənnin məqsədi müxtəlif iqtisadi sistemlərin necə fəaliyyət göstərdiyini, onların güclü, zəif tərəflərini və cəmiyyətlər üçün təsirlərini öyrənmək, müxtəlif iqtisadi sistemlərin fəaliyyətini təhlil və müqayisə etməkdir. İqtisadi təşkilatın istehsal, istehlak və sərvət transferinə təsirini anlamaq, Ümumi Daxili Məhsul (ÜDM) kimi göstəricilərdən istifadə edərək iqtisadi performansı qiymətləndirmək, sərvət bölgüsü və sosial ədalətlə bağlı normativ sualları həll etmək, iqtisadi performansı ölçmək üçün müqayisəli iqtisadiyyatın həm müsbət (təsviri) həm də normativ (dəyər əsaslı) aspektlərini nəzərə alaraq iqtisadi nəticələri qiymətləndirmək, normativ qiymətləndirmələrin iqtisadi sistem daxilində əxlaqi və etik mülahizələrini nəzərə almağı əsaslandırır.

"Müqayisəli iqtisadi sistemlər" fənninin tədrisinin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- Müqayisəli təhlil nümunələri, fərqləri və mübadilələri müəyyən etmək
- İnstitusional tənzimləmələri başa düşmək
- Təşkilatların iqtisadi sistemlərlə qarşılıqlı əlaqəsini başa düşmək
- İqtisadi fəaliyyəti qiymətləndirmək
- Müqayisəli iqtisadi sistemlərin tarixi kontekstini, sistemlərin inkişafını, uyğunlaşmasını və xarici şoklara (müharibələr, texnoloji dəyişikliklər və s.) reaksiyasını araşdırmaq
- Gəlir bərabərsizliyi məqbulluğunu, resursların necə bölüşdürülməsini, hökumətin rolunu, normativ mülahizələrə əsaslanan siyasət qərarları ilə bağlı məlumatlanmaq
- Konkret ölkələr və ya regionlar üzrə nümunə araşdırmaq, bu kontekstlərdə iqtisadi sistemləri müqayisə etmək
- Mədəni və sosial amillərin iqtisadi davranışa təsirini öyrənmək
- Müqayisəli təhlil əsasında iqtisadi siyasət tövsiyələri təklif etmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Müqayisəli iqtisadi sistemlər kursu, onun nəzəri əsasları haqqında
- İqtisadi sistemlər: anlayış, təsnifat, təkamül haqqında
- Bazar sistemi - üstünlüklər və uğursuzluqlar haqqında
- Komanda sistemi - üstünlüklər və uğursuzluqlar haqqında
- Kontinental Avropa iqtisadi modeli: Almaniya, Fransa, Skandinaviya ölkələrinin inkişaf xüsusiyyətləri haqqında
- Anqlo-sakson modelinin xüsusiyyətləri: ABŞ və BB iqtisadi sistemləri haqqında
- Yapon modelinin xarakterik xüsusiyyətləri haqqında
- Sinqapur, Tayvan və Honkonq iqtisadi modellərinin əsasını təşkil edən azad bazar prinsipləri, dövlətin strateji rolu, yüksək xarici investisiya cəlbediciliyi və ixrac yönümlü sənayeləşmə siyasətini konkret misallarla izah edə bilməlidir..
- Post-sosializm inkişafının xüsusiyyətləri, keçid iqtisadiyyatının problemləri haqqında
- Çin inkişaf modelinin xarakterik xüsusiyyətləri haqqında
- Yaxın Şərq və Şimali Afrika ölkələrinin inkişaf modelləri haqqında
- Orta Şərqin inkişaf modelinin mahiyyəti və xarakterik xüsusiyyətləri iqtisadi haqqında
- Hindistan, Vyetnam, Şimali Koreya və Kuba iqtisadiyyatlarının inkişaf yollarını, dövlətin iqtisadiyyatda rolunu, islahat səviyyəsini və xarici iqtisadi açıqllıq dərəcəsini müqayisə etməklə bu ölkələrin fərqli iqtisadi modellər üzrə inkişaf xüsusiyyətlərini müəyyənləşdirməyi.
- İslam iqtisadi modelinin əsasını təşkil edən şəriət prinsiplərini, faizsiz bankçılıq, ədalətli bölüşdürmə, zəkat və haram gəlir qadağası kimi iqtisadi anlayışları izah etməyi və bu modelin müasir iqtisadi sistemlərlə fərqlərini müəyyənləşdirməyi
- Türk dövlətlərinin iqtisadi sistemlərinin əsas xüsusiyyətlərini, oxşar və fərqli cəhətlərini
- Müqayisəli təhlil əsasında bu sistemlərin üstünlükləri və çatışmazlıqlarını
- Latın Amerikası ölkələrinin iqtisadi modeli haqqında

- Qloballaşmanın iqtisadi inkişafa təsiri haqqında

**<u>Bacarmalıdırlar</u>:**

- İqtisadi sistem, iqtisadi model anlayışlarını və onların müqayisəsini izah etməyi;
- Fərqli iqtisadi sistemlərin (mərkəzləşdirilmiş, bazar, qarışıq və ənənəvi sistemlər) mahiyyətini və məqsədini aydın şəkildə izah edə bilmək.
- İqtisadi sistemlərin əsas meyarlar üzrə (mülkiyyət forması, qərar qəbuletmə üsulu, dövlətin iqtisadiyyatda rolu və s.) müqayisəsini aparmaq.
- Liberal kapitalizm və müdaxiləçi kapitalizm arasındakı əlaqəni izah etməyi bacarmaq
- Kapitalizmin uğur və uğursuzluqlarını, bazar uğursuzluqlarını və ictimai uğursuzluqları izah edir.
- Komanda sisteminin mahiyyətini izah edə bilməli
- Bu modelin mahiyyətini, tarixini və Avropa sosial bazar iqtisadiyyatı prinsiplərini izah edə bilmək.
- Hər bir ölkənin sosial-iqtisadi strukturunu, dövlətin iqtisadiyyatda rolunu və bazar nizamlamasının əsas xüsusiyyətlərini göstərmək.
- Kapitalizm nümunələri kimi ABŞ, AB iqtisadiyyatlarına dair şərhləri verə bilir.
- Yaponiya iqtisadiyyatına dair şərhləri verə bilir.
- Sinqapur, Tayvan və Honkonq iqtisadi modellərinin azad bazar və ixrac yönümlü inkişaf strategiyasını təhlil etmək;
- Bu ölkələrdə iqtisadi artımı sürətləndirən əsas amilləri (dövlətin rolu, xarici investisiyalar, texnologiya və insan kapitalı) konkret nümunələrlə izah etmək.
- Çin, Polşa və digər postsosialist ölkələrin keçid iqtisadiyyatı modelini, islahat mərhələlərini və bazar iqtisadiyyatına inteqrasiya yollarını izah etmək;
- Postsosialist ölkələrin (Çin, Polşa və postsovet məkanı) inkişaf modelləri arasında iqtisadi liberallaşma səviyyəsi, dövlətin rolu və sosial nəticələr baxımından müqayisəli təhlil aparmaq.
- Təbii ehtiyatlara əsaslanan iqtisadi modellərin əsas xüsusiyyətlərini (resurs asılılığı, fiskal gəlirlər, makroiqtisadi sabitlik) izah etmək;
- Norveç, Rusiya, Səudiyyə Ərəbistanı kimi resurs zəngin ölkələrin iqtisadi inkişaf strategiyalarını müqayisə edərək, resurs tələsi və diversifikasiya siyasətinin təsirlərini təhlil etmək.
- Hindistan, Vyetnam, Şimali Koreya və Kuba iqtisadiyyatlarının əsas inkişaf modellərini və iqtisadi-strateji yanaşmalarını təhlil etmək;
- Bu ölkələrin iqtisadiyyatlarında dövlətin rolu, islahatların miqyası və xarici iqtisadi siyasət baxımından oxşar və fərqli cəhətləri müqayisə etmək.
- İslam iqtisadiyyatının əsas prinsiplərini və məqsədlərini izah edə bilməli,
- Şəriətə əsaslanan iqtisadi fəaliyyətin xüsusiyyətlərini tanıya bilməlidir.
- Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkiyənin iqtisadi sistemlərini struktur baxımından təhlil edə bilməli,
- Bu dövlətlərin bazar iqtisadiyyatına keçid modellərini və institusional fərqlərini müqayisə edə bilməlidir.
- Müasir kapitalizm və qloballaşma arasındakı əlaqəni izah edir.
- Müxtəlif iqtisadi sistemlərin qloballaşma şəraitində fəaliyyətini müqayisə etməyi bacarmalıdır.

## VII. Prerekvizitlər

Prerekvizit fənlər yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

*Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:*

1. Müqayisəli iqtisadi sistemlər kursunun nəzəri əsasları
2. İqtisadi sistemlər: anlayış, təsnifat, təkamül
3. Bazar sistemi - üstünlüklər və uğursuzluqlar
4. Komanda sistemi - üstünlüklər və uğursuzluqlar
5. Kontinental Avropa iqtisadi modeli: Almaniya, Fransa, Skandinaviya ölkələri
6. Anqlo-sakson modelinin xüsusiyyətləri: ABŞ, Böyük Britaniya, Kanada, Yeni Zelandiya və Avstraliya
7. Yapon və Cənubi Koreya iqtisadi modelləri: dövlət və biznes əməkdaşlığı, texnoloji inkişaf
8. Cənub-şərqi Asiya ölkələri: Azad bazar, ixrac yönümlü inkişaf
9. Postsosialist ölkələrinin inkişaf xüsusiyyətləri
10. Çin və Hindistan iqtisadi sistemi
11. Təbii ehtiyatlara malik olan ölkələrin iqtisadi modellərinin xüsusiyyətləri
12. İslam iqtisadi modeli: şəriət prinsiplərinə əsaslanan iqtisadiyyat
13.Türk dövlətlərinin iqtisadi sistemlərinin müqayisəli təhlili
14. Latın Amerikası ölkələrinin iqtisadi modeli
15. Müqayisəli iqtisadiyyat və qloballaşma

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ digər materiallar elektron formatda universitetin saytında (www.unec.edu.az) "EDUMAN" sistemində və şəxsi kabinetdə yerləşdirilir. Məhz mövzular üzrə müvafiq ədəbiyyatlar isə tələbələrin elektron şəxsi kabinetlərində "digər materiallar" bölümündə yerləşdirilmişdir.

## X. Əsas və əlavə ədəbiyyatlar

**Əsas ədəbiyyat:**

1. Hasan İslatince, İktisadi Sistemler; Kapitalizm ve Sosyalizm, Ekin Basım Yayın, 2009

2. Бузгалин А.В., Колганов А.И. Экономическая компаративистика (сравнительный анализ экономических систем): Учебник. – М.: ИНФРА-М, 2009 – 746 с.

3. под. ред. Булатова А.С. Мировая экономика: Учебник. – М., Экономистъ – 2008 – 860 с.

4. Тимошина Т.М. Экономическая история зарубежных стран: Учебное пособие. – М., Юридический Дом « Юстицинформ» - 2000 – 496 с.

5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/

6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021

*Əlavə ədəbiyyat:*

1. Nalan Ölmezoğulları Ekonomik Sistemler ve Küreselleşen Kapitalizm, Ezgi Kitabevi, 2008.

2. Cahit Talas, Ekonomik Sistemler, İmge Kitabevi Yayıncılık, 1999.

3. J. M. Albertini - M. Pecherand, Ekonomik Sistemler Uygulamada Kapitalizm ve Sosyalizm, Ekin, Basım Yayın. 1995.

4. Karl Polanyi, Büyük Dönüşüm; Çağımızın Siyasal ve Ekonomik Kökenleri, Çev: Ayşe Buğra, İletişim Yayınları, 2011.

5. Beşir Hamitoğulları, Çağdaş İktisadi Sistemler: Strüktürel ve Doktrinal Bir Yaklaşım, Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Yayınları No:508, 1982.

6. World Bank Reports (2020–2024)

7. OECD Economic Surveys

8. UNCTAD Reports on Development Strategies

*Proqram sənədləri və qanunlar:*

1. Azərbaycan Respublikası Konstitutsiyası Bakı 1995.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-2023-cü illər ərzində hesabatları

3. «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016.

4. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər

5. 2022–2026-cı illər üçün Sosial-iqtisadi İnkişaf Strategiyası

*İnternet resursları:*

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin saytı: www.economy.gov.az

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı: www.stat.gov.az

3. http://e-qanun.az/

4. https://www.nber.org/

*Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.*

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Müqayisəli iqtisadi sistemlər kursunun nəzəri əsasları** | 1. Müqayisəli iqtisadi sistemlər kursunun nəzəri əsasları və məqsədi<br>2. İqtisadi sistemlərin müqayisəsi<br>3. İqtisadi rejim<br>4. İqtisadi struktur<br>5. İqtisadi doktrina | 1. Hasan İslatince, İktisadi Sistemler; Kapitalizm ve Sosyalizm, Ekin Basım Yayın, 2009<br>2. Бузгалин А.В., Колганов А.И. Экономическая компаративистика (сравнительный анализ экономических систем): Учебник. – М.: ИНФРА-М, 2009 – 746 с.<br>3. под. ред. Булатова А.С. Мировая экономика: Учебник. – М., Экономистъ – 2008 – 860 с.<br>4. Тимошина Т.М. Экономическая история зарубежных стран: Учебное пособие. – М., Юридический Дом « Юстицинформ» - 2000 – 496 с.<br>5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br>https://www.nber.org/ |

| | | | |
|---|---|---|---|
| | | | |
| **2** | **İqtisadi sistemlər: anlayış, təsnifat, təkamül** | 1. İqtisadi sistemlərin mahiyyəti, məqsədi, strukturu, elementləri,<br><br>2. İqtisadi struktura təsir edən amillər<br><br>3. İqtisadi sistemlərin müxtəlif meyarlara görə təsnifatı (Mülkiyyət formasına görə, Resursların bölüşdürülmə üsuluna görə, dövlət müdaxiləsinin səviyyəsinə görə)<br><br>4. İqtisadi sistemlərin tarixi təkamülü<br><br>5. İqtisadi sistemlərin transformasiyası: innovasiya iqtisadiyyatı, rəqəmsal iqtisadiyyat və yaşıl iqtisadiyyat modelləri | 1. Hasan İslatince, İktisadi Sistemler; Kapitalizm ve Sosyalizm, Ekin Basım Yayın, 2009<br><br>2. Бузгалин А.В., Колганов А.И. Экономическая компаративистика (сравнительный анализ экономических систем): Учебник. – М.: ИНФРА-М, 2009 – 746 с.<br><br>3. под. ред. Булатова А.С. Мировая экономика: Учебник. – М., Экономистъ – 2008 – 860 с. |
| **3** | **Bazar sistemi - üstünlüklər və uğursuzluqlar** | 1. Bazar sisteminin üstünlükləri<br><br>2. Bazar sisteminin uğursuzluqları<br><br>3. Kapitalist sisteminin qiymətləndirilməsi<br><br>4. Resursların səmərəli istifadəsi<br><br>5. Kapitalist sisteminin uğurları | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br><br>https://www.nber.org/ |
| **4** | **Komanda sistemi - üstünlüklər və uğursuzluqlar** | 1. Sosializmin tarixi inkişafı<br><br>2. Sosializmin növləri | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy |

| | | | |
|---|---|---|---|
| | | 3. Marksın iqtisadi nəzəriyyələri<br><br>4. Kapitalın yığılması və nəticələri<br><br>5. Kapitalist və sosialist sistemlərin müqayisəsi | Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021 https://www.nber.org/ |
| **5** | **Kontinental Avropa iqtisadi modeli: Almaniya, Fransa, Skandinaviya ölkələri** | 1. Avropa Birliyi ölkələrinin ümumi xarakteristikası<br><br>2. Almaniyada kapitalizmin tətbiqi və iqtisadi inkişaf xüsusiyyətləri<br><br>3. Fransada kapitalizmin tətbiqi və iqtisadi inkişaf xüsusiyyətləri<br><br>4. Skandinaviya ölkələrinin inkişaf modeli<br><br>5. Kontinental Avropa ölkələrinin müqayisəli makroiqtisadi təhlili | 3. под. ред. Булатова А.С. Мировая экономика: Учебник. – М., Экономистъ – 2008 – 860 с.<br><br>4. Тимошина Т.М. Экономическая история зарубежных стран: Учебное пособие. – М., Юридический Дом « Юстицинформ» - 2000 – 496 с.<br><br>5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br><br>https://www.nber.org/ |

| | | | |
|---|---|---|---|
| **6** | **Anqlo-sakson modelinin xüsusiyyətləri: ABŞ, Böyük Britaniya, Kanada, Yeni Zelandiya və Avstraliya** | 1. ABŞ-da kapitalizmin tətbiqi və iqtisadi inkişaf xüsusiyyətləri<br><br>2. B.Britaniyada (İngiltərə) kapitalizmin tətbiqi və iqtisadi inkişaf xüsusiyyətləri<br><br>3. Kanada iqtisadiyyatının xüsusiyyətləri<br><br>4. Yeni Zelandiya iqtisadiyyatının xüsusiyyətləri<br><br>5. Avstraliya iqtisadiyyatının xüsusiyyətləri | 3. под. ред. Булатова А.С. Мировая экономика: Учебник. – М., Экономистъ – 2008 – 860 с.<br><br>4. Тимошина Т.М. Экономическая история зарубежных стран: Учебное пособие. – М., Юридический Дом « Юстицинформ» - 2000 – 496 с.<br><br>5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br><br>https://www.nber.org/ |
| **7** | **Yapon və Cənubi Koreya iqtisadi modelləri: dövlət və biznes əməkdaşlığı, texnoloji inkişaf** | 1. Yaponiyada kapitalizmin inkişaf tarixi<br><br>2. Yaponiyada kapitalizmin tətbiqi<br><br>3. İkinci dünya müharibəsindən sonra Yaponiyada dirçəliş<br><br>4. Yaponiyanın inkişaf modelinin xüsusiyyətləri<br><br>5. Digər Şərqi Asiya ölkələrinin inkişaf modelinin xüsusiyyətləri | 1. Hasan İslatince, İktisadi Sistemler; Kapitalizm ve Sosyalizm, Ekin Basım Yayın, 2009 |

| | | | |
|---|---|---|---|
| **8** | **Cənub-şərqi Asiya ölkələri: Azad bazar, ixrac yönümlü inkişaf** | 1. Cənub-şərqi Asiya ölkələrinin iqtisadi modelinin xüsusiyyətləri<br>2. İxrac yönümlü inkişafın əsas meyarları<br>3. Sinqapur iqtisadi modeli<br>4. Tayvan iqtisadi modeli<br>5. Qonkonq iqtisadi modeli | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br>https://www.nber.org/ |
| **9** | **Postsosialist ölkələrinin inkişaf xüsusiyyətləri** | 1. İnzibati sistemdən bazar iqtisadiyyatına keçidin xüsusiyyətləri<br>2. Şərqi Avropa ölkələrinin iqtisadi inkişaf modelinin xüsusiyyətləri<br>3. Müstəqil Dövlətlər Birliyi ölkələrinin inkişaf xüsusiyyətləri | 1. Hasan İslatince, İktisadi Sistemler; Kapitalizm ve Sosyalizm, Ekin Basım Yayın, 2009 |
| **10** | **Çin və Hindistan iqtisadi sistemi** | 1. Çin iqtisadiyyatının tarixi inkişaf mərhələləri<br>2. Çin iqtisadiyyatının investisiya imkanları və iqtisadi azadlıq göstəriciləri<br>3. Hindistanda iqtisadi islahatların aparılması və nəticələri<br>4. Hindistanın iqtisadi inkişaf perspektivləri | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br>https://www.nber.org/ |

| | | | |
|---|---|---|---|
| **11** | **Təbii ehtiyatlara malik olan ölkələrin iqtisadi modellərinin xüsusiyyətləri** | 1. Təbii ehtiyatlara malik olan ölkələrin iqtisadiyyatında ümumi cəhətlər<br><br>2. Təbii ehtiyatlara malik olan ölkələrin iqtisadiyyatında fərqli cəhətlər<br><br>3. Yaxın Şərq ölkələrinin inkişaf modelləri<br><br>4. Şimali Afrika ölkələrinin inkişaf modelləri<br><br>5. Afrika ölkələrinin iqtisadiyyatlarının yenidən qurulması problemi | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br><br>https://www.nber.org/ |
| | | | |
| **12** | **İslam iqtisadi modeli: şəriət prinsiplərinə əsaslanan iqtisadiyyat** | 1. İslam iqtisadi modelinin əsas prinsipləri<br><br>2. İslam iqtisadiyyatında mülkiyyət hüquqlarının və sərvət bölgüsünün tənzimlənməsi<br><br>3. İslam iqtisadi modelində faizsiz bankçılıq və maliyyələşdirmə sistemi<br><br>4. Müasir dünyada islam iqtisadi modelinin tətbiq sahələri<br><br>5. İslam iqtisadi modeli dövlətlərində makro göstəricilər üzrə müqayisə | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021<br><br>https://www.nber.org/ |
| **13** | **Türk dövlətlərinin iqtisadi sistemlərinin müqayisəli təhlili** | 1. Türk dövlətlərinin iqtisadi sistemlərin əsas xüsusiyyətləri<br><br>2. Türkiyə, Azərbaycan, Qazaxıstanda bazar iqtisadiyyatının formalaşması<br><br>3. Özbəkistan və Türkmənistanda | 1. Nalan Ölmezoğulları Ekonomik Sistemler ve Küreselleşen Kapitalizm, Ezgi Kitabevi, 2008. |

| | | | |
|---|---|---|---|
| | | planlaşdırma iqtisadi sisteminin xüsusiyyətləri<br><br>4. Türk dövlətlərində əsas iqtisadi göstəricilər üzrə müqayisə (ÜDM-nin sektoral bölgüsü, xarici ticarət balansı, investisiya axınları, innovasiya və texnoloji inkişaf səviyyəsi)<br><br>5. Türk dövlətlərinin iqtisadi inteqrasiyası (Türk Dövlətləri Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı) | 2. Cahit Talas, Ekonomik Sistemler, İmge Kitabevi Yayıncılık, 1999.<br><br>3. J. M. Albertini - M. Pecherand, Ekonomik Sistemler Uygulamada Kapitalizm ve Sosyalizm, Ekin, Basım Yayın. 1995.<br><br>4. Karl Polanyi, Büyük Dönüşüm; Çağımızın Siyasal ve Ekonomik Kökenleri, Çev: Ayşe Buğra, İletişim Yayınları, 2011. |
| **14** | **Latın Amerikası ölkələrinin iqtisadi modeli** | 1. Latın Amerikası ölkələrinin inkişaf mərhələləri və iqtisadi modeli<br><br>2. Latın Amerikası ölkələrində islahatlar<br><br>3. Latın Amerikası ölkələrində iqtisadi vəziyyət<br><br>4. Latın Amerikası ölkələrində əsas iqtisadi göstəricilər üzrə müqayisə<br><br>5. Latın Amerikası ölkələrinin iqtisadi inteqrasiyası | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/<br><br>6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021 |
| **15** | **Müqayisəli iqtisadiyyat və qloballaşma** | 1. Kapitalist iqtisadi sisteminin qloballaşma kontekstində inkişafı<br><br>2. Sosialist iqtisadi sisteminin qloballaşma kontekstində inkişafı<br><br>3. Qarışıq iqtisadi sistemin qloballaşma kontekstində inkişafı<br><br>4. Qloballaşmanın müsbət və mənfi | 5. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century, Global Development Policy Center Boston University, http://www.bu.edu/eci/education-materials/teaching-modules/ |

| | | | |
|---|---|---|---|
| | | tərəfləri<br><br>5. Qloballaşan dünyada iqtisadi və maliyyə böhranlarının müasir iqtisadi sistemlərin formalaşmasına təsiri | 6. Comparative Economics in a Transforming World Economy, J. Barkley Rosser, Jr., Marina V. Rosser, MİT Press, third edition, 2021 |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.
6) Tələbənin məşğələdəki hər bir cavabı 20 ballıq sistem üzrə 0-20 bal arasında (maksimum 20 bal olmaqla) qiymətləndirilir. Tələbə aktivlik balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Nəticədə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Dərsə davamiyyət**

Tələbənin dərsə davamiyyəti **sərbəstdir!**

**XV. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVI. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və dərsə davamiyyətin nəticələrinə görə | 50 | 50 % |
| | | |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" **-F**
51-60 bal "qənaətbəxş" **-E**
61-70 bal "kafi" **-D**
71-80 bal "yaxşı" **-C**
81-90 bal "çox yaxşı" **-B**
91-100 bal "əla" **-A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.